**KONISOVA AYGERIM AQZAM QIZI**



**Aygerim Konisova** ali təhsilini H.A. Yəsəvi adına Beynəlxalq Qazax–Türk Universitetində almışdır. O, 2007–2011-ci illərdə Filologiya fakültəsində “Xarici dillər (ingilis–çin dilləri)” ixtisası üzrə bakalavr pilləsini uğurla başa vurmuşdur. Təhsilini davam etdirərək, A. Konisova 2011–2012-ci illərdə həmin universitetin Filologiya fakültəsində “Xarici dillər (ingilis–türk dilləri)” ixtisası üzrə magistr dərəcəsini almışdır.

Elmi fəaliyyətini daha da inkişaf etdirmək məqsədilə A. Konisova 2018–2021-ci illərdə H.A. Yəsəvi adına Beynəlxalq Qazax–Türk Universitetində “Pedaqogika və psixologiya” ixtisası üzrə doktorantura pilləsində təhsil almış, pedaqoji fəaliyyəti prosesində təmsil etdiyi ali təhsil müəssisəsində “Əsas xarici dil” (B2 səviyyəsi), “Peşə yönümlü əsas xarici dil” (C1 səviyyəsi) və “Akademik məqsədlər üçün xarici dilin tədrisi” kimi fənləri tədris etmiş, tələbələrin dil bacarıqlarının inkişafına, akademik yazı və ünsiyyət vərdişlərinin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir.

13 oktyabr – 24 oktyabr 2025-ci il tarixlərində Aygerim Konisova ORHUN mübadilə proqramı çərçivəsində Bakı Slavyan Universitetində (BSU) müəllim kimi fəaliyyət göstərmiş, Təhsil fakültəsində “İbtidai sinif müəllimliyi” və “Psixologioya” ixtisasları üzrə təhsil alan tələbələrə “Xarici dildə işgüzar və akademik kommunikasiya-I” (İngilis dili) fənnini keçmiş, fakültənin ictimai fəaliyyətində yaxından iştirak etmiş və beynəlxalq əməkdaşlığın inkişafına dəstək olmuşdur.